# Ukrayna Azərbaycanın yaxın dostu və tərəfdaşıdır

*Əminəm ki, səfərin çox gözəl nəticələri olacaqdır. Bir çox önəmli məsələlər müzakirə olundu, o cümlədən ticarət dövriyyəsinin artırılması ilə bağlı məsələlər. Ənənəvi olaraq energetika, nəqliyyat sahələrində əməkdaşlıq uğurla davam etdirilir. Təkbətək görüşdə biz bu əlaqələrin gələcək inkişafı ilə bağlı geniş fikir mübadiləsi apardıq.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı, 17 dekabr 2017-ci il**

*Azərbaycana hər səfərimdən sonra mən Ukraynaya yeni hisslərlə, yeni emosiyalarla və yeni dostlarla qayıdıram. Azərbaycan çox qonaqpərvər torpaqdır.*

**Vladimir ZELENSKİ**
**Ukrayna Prezidenti**

**Bakı, 17 dekabr 2019-cu il**



Ulu öndər Heydər Əliyevin işləyib hazırladığı xarici siyasət kursumuzda yaxın qonşular və postsovet məkanı ölkələri ilə əməkdaşlığa xüsusi önəm verilirdi. Elə Ukrayna ilə əməkdaşlığı da bu istiqamətlərin hər ikisinə şamil etmək olar. Postsovet məkanında Azərbaycanın əsas strateji müttəfiqlərindən biri Ukraynadır. Azərbaycanla Ukrayna arasında nə dəniz, nə də quru sərhədlərinin olmamasına baxmayaraq, iki ölkə arasındakı strateji müttəfiqlik münasibətləri durmadan möhkəmlənir və genişlənir. Ukrayna ilə Azərbaycan arasında diplomatik münasibətlər 31 yanvar 1992-ci ildə qurulsa da, Ukraynanın Azərbaycandakı səfirliyi 1996-cı il mayın 5-də fəaliyyətə başlayıb. Azərbaycanın Ukraynadakı səfirliyi isə 1997-ci il martın 17-də açılıb. Ölkələr arasındakı münasibətlər sürətlə inkişaf edib. 1995-ci ilin mart hadisələri zamanı Azərbaycanda bir qrup şəxs silahlı dövlət çevrilişi etməyə çalışdığı bir vaxtda -- martın 17-də Ukraynanın o vaxtkı Prezidenti Leonid Kuçma Prezident Heydər Əliyevə zəng vuraraq ona öz dəstəyini ifadə edib.

1997-1998-ci illər ərzində Azərbaycan və Ukraynanın müxtəlif səviyyəli dövlət rəsmiləri arasında qarşılıqlı səfərlər davam edib. Bu səfərlərin nəticəsi olaraq Azərbaycan–Ukrayna münasibətləri enerji sahəsindən tutmuş müdafiə sahəsinə qədər geniş əməkdaşlıq spektrlərini əhatə edib. Beynəlxalq təşkilatlar formatında əməkdaşlıq sıx aparılsa da, ölkələr arasında birbaşa əməkdaşlıq modelinə daha böyük üstünlük verilib. 1998-ci il avqustun 9-10-da Azərbaycan Prezidenti Heydər Əliyev Ukrayna Prezidenti Leonid Kuçmanın Yalta şəhərində keçirilən 60 illik yubiley tədbirində iştirak edib. Heydər Əliyevlə Leonid Kuçmanın keçirdiyi görüş zamanı 1999-cu ildə iki ölkə arasında əməkdaşlıq proqramı da müzakirə olunub

2000-ci il 16 mart tarixində Ukraynanın dövlət başçısı Leonid Kuçma Azərbaycana rəsmi səfər gəlib. Səfərin nəticələrinə görə, Azərbaycanla Ukrayna arasında bir sıra ikitərəfli sənədlər imzalanıb. 2002-ci il iyulun 19-da Heydər Əliyev işgüzar səfərlə Ukraynanın Yalta şəhərində olub.

Azərbaycan–Ukrayna münasibətlərinin intensiv dinamikası İlham Əliyev Prezident seçildikdən sonra da davam edib. Təsadüfi deyil ki, İlham Əliyev Prezident seçildikdən sonra keçirdiyi ilk görüşlərindən biri məhz Ukraynanın Baş naziri Viktor Yanukoviçlə olub.

2004-cü il iyunun 3-də Prezident İlham Əliyev Ukraynaya rəsmi səfər edib. Səfər zamanı o Ukrayna Prezidenti Leonid Kuçma ilə, Baş nazir Viktor Yanukoviçlə, Ukrayna Ali Radasının sədri Vladimir Litvinlə görüşüb. Prezident İlham Əliyevin Leonid Kuçma ilə keçirdiyi görüşdə ticarət-iqtisadi əməkdaşlıq, o cümlədən neft sahəsində və enerji daşıyıcılarının Avropaya nəqli sahəsində işbirliyi məsələləri ətraflı müzakirə edilib. Tərəflər bu işin səviyyəsindən razı qaldıqlarını bildiriblər. Azərbaycan və Ukrayna prezidentləri ölkələrimizin xalqlarının mənafelərinə xidmət edən Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın beynəlxalq siyasətdə rolunun getdikcə artdığını vurğulayıblar. 2008-ci il mayın 24-də İlham Əliyev Ukraynada rəsmi səfərdə olub. Həmin il iyun ayının 30-da Ukrayna Prezidenti Viktor Yuşşenko Azərbaycana işgüzar səfərə gəlib. Səfər çərçivəsində hər iki ölkənin prezidentləri Bakıda Ukraynanın yeni səfirliyi üçün ayrılan ərazi ilə tanış olublar.

***Bu qəbildən olan görüşlər barədə qəzet materialı hazırlayarkən ilk növbədə ölkələrarası münasibətlərin tarixi yada düşür. Ukrayna Prezidenti Vladimir Zelenskinin Bakıya səfəri, dövlət başçısı ilə təkbətək və geniş tərkibdə görüşməsi, eləcə də, ikitərəfli sənədlərin imzalanması barədə olan sətirləri qələmə alarkən də əməkdaşlığımızın tarixçəsinə müraciət etməli olduq. Doğrudur, Azərbaycan – Ukrayna münasibətləri həm sovet dönəmində, həm də SSRİ-nin süqutundan sonra elə müsbət məcrada inkişaf edib ki, hər iki ölkənin əhalisi az qala bu əməkdaşlığın bütün detallarını əzbər bilir. Buna baxmayaraq, bəzi məqamları yada salmağa zərurət var.***

2009-cu il aprelin 4-də Ukrayna Prezidenti Viktor Yuşşenko Azərbaycanda səfərdə olub. Səfər zamanı Azərbaycan və Ukrayna prezidentlərinin təkbətək görüşü, Azərbaycan və Ukrayna Prezidentləri Şurasının ilk iclası keçirilib. Səfər çərçivəsində Azərbaycan və Ukrayna arasında ikitərəfli sənədlərin imzalanma mərasimi olub. "2009-2010-cu illər üçün Azərbaycan--Ukrayna əməkdaşlığına dair tədbirlər planı"nı Azərbaycan Prezidenti İlham Əliyev və Ukraynanın Prezidenti Viktor Yuşşenko imzalayıblar.

Nəhayət, bu il dekabrın 17-də Bakıya səfər edən Ukrayna Prezidenti Vladimir Zelenskinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə təkbətək görüşü olub. Qonağı səmimi salamlayan dövlət başçımız əmin olduğunu bildirib ki, dost ölkənin dövlət başçısının bu səfəri uğurlu olacaq və Ukrayna--Azərbaycan əlaqələrinin inkişafına təkan verəcəkdir. Prezident xatırladıb ki, ikitərəfli gündəlik kifayət qədər genişdir: "Bu gün həm siyasi əlaqələr, iqtisadi sahədə əməkdaşlıq, humanitar və digər sahələrdə əlaqələr müzakirə olunacaq. Əminəm ki, keçiriləcək danışıqlar və imzalanacaq sənədlər bizim əlaqələrimizi daha da möhkəmləndirəcək".

Ukrayna Prezidenti Vladimir Zelenski isə xatırladıb ki, ölkələrimiz arasında hazırda da olduqca möhkəm münasibətlər var: "Əminəm ki, bu səfərin nəticəsi olaraq biz onu yeni mərhələyə qaldıra biləcəyik. Azərbaycana minnətdarlığımızı bildirmək istəyirik ki, Ukraynanın suverenliyini və ərazi bütövlüyünü tanıyır və dəstəkləyir. Xahiş edirəm biləsiniz ki, biz də, eyni zamanda, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyirik".

Dövlət başçılarının nümayəndə heyətlərinin iştirakı ilə keçirilən geniş tərkibdə görüşdə də maraqlı faktlarla yadda qalıb. Görüşdə çıxış edən Prezident İlham Əliyev deyib ki, təkbətək görüşdə bir çox önəmli məsələlər müzakirə olundu, o cümlədən ticarət dövriyyəsinin artırılması ilə bağlı məsələlər: "Ənənəvi olaraq energetika, nəqliyyat sahələrində əməkdaşlıq uğurla davam etdirilir. Təkbətək görüşdə biz bu əlaqələrin gələcək inkişafı ilə bağlı geniş fikir mübadiləsi apardıq. Bir önəmli sahə də kənd təsərrüfatıdır. Biz əvvəlki illərdə Ukraynadan bir çox kənd təsərrüfatı texnikası almışıq. Əlbəttə ki, qarşılıqlı sərmayə qoyuluşu ilə bağlı məsələlər böyük maraq doğurur. Əminəm ki, bu gün keçiriləcək Ukrayna-Azərbaycan biznes forumu biznes dairələri arasındakı əlaqələrə də müsbət təsir göstərəcəkdir".

Ukrayna Prezidenti Vladimir Zelenski Azərbaycanda ilk rəsmi səfərdə olmaqdan çox böyük məmnunluq duyduğunu dilə gətiribi: "Azərbaycan bizim üçün çox qonaqpərvər və dost ölkədir". Qonaq qeyd edib ki, yaxın zamanda Azərbaycandan bir işçi heyət Ukraynaya səfər edəcək və orada bizim bütün şirkət və müəssisələrdə olub imkanları yerində araşdıracaq: "Energetika, kənd təsərrüfatı, turizm, infrastrukturun inkişafı sahələri bizim üçün böyük maraq kəsb edir".

Kütləvi informasiya vasitələri yazırlar ki, dekabrın 17-də – dövlət başçılarının geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Vladimir Zelenskinin iştirakı ilə Azərbaycan – Ukrayna sənədlərinin imzalanması mərasimi olub. Bildirilir ki, əvvəlcə Gəncə və Odessa şəhərləri arasında niyyət protokolu və Quba və Truskavets şəhərləri arasında ticarət-iqtisadi, elmi-texniki, eləcə də, mədəni əməkdaşlıq haqqında müqavilə imzalanıb.

Sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Ukraynanın Dövlət Tənzimləmə Xidməti arasında biznesin aparılması şəraitinin tənzimlənməsi sahəsində əməkdaşlıq haqqında saziş, Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti ilə Ukraynanın Dövlət Xüsusi Rabitə və Məlumatın Mühafizəsi Xidməti Administrasiyası arasında Bakı-Kiyev dövlətlərarası hökumət rabitə xəttinin təşkil edilməsi haqqında saziş imzalanıb.

Daha sonra dövlət başçıları mətbuat üçün bəyanatla çıxış ediblər.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***